# Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası

**Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri də təhsiln inkişafıdır. Bütün ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında da bu sahəyə xüsusi diqqət verilməsi onun cəmiyyətin həyatında strateji əhəmiyyət daşıması ilə əlaqədardır. Azərbaycan Respublikasının "Milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, inkişaf etmiş ölkələrdə milli sərvətin böyük hissəsini insan kapitalı təşkil edir və iqtisadi artımda intellektual əmək yüksək xüsusi çəkiyə malikdir. Ölkənin dayanıqlı inkişafını təmin etmək məqsədilə ötən illər ərzində insan kapitalının inkişafı ilə bağlı müəyyən tədbirlər görülmüş və hazırda icra olunan bir sıra strategiya, dövlət proqramları və konsepsiyalarda bu öz əksini tapmışdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, bilik və innovasiyalara əsaslanma inkişaf prioritet təşkil edir. Eləcə də "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunları ölkədə insan kapitalının inkişafına xidmət edən mühüm dövlət sənədləridir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XXI əsrdə ölkələrin təbii resurslar hesabına yox, intellektual potensial, yeni texnologiyaların tətbiqi əsasında inkişaf edəcəyini qeyd edir. **"2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın** təsdiq edilməsi barədə 22 may 2009-cu il (№ 295) Azərbaycan Respublikası Prezidentinin sərəncamı ölkənin ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, iqtisadiyyatın inkişaf meyillərinə müvafiq yüksəkixtisaslı kadrlara tələbatın ödənilməsi, həmçinin əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılmasının vacibliyi vurğulanır.

Məqsəd rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir. Müasir dövrdə təhsil sektoru iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən biridir. Təhsil sferasında iqtisadi münasibətlər ciddi dəyişikliklərə məruz qalır və bunu bəzi amillər şərtləndirir. Göstərilən təhsil xidmətlərinin spesifikası, təhsil sektorunda dövlətin rolunun, təhsil xidmətinin maliyyələşməsinin strukturunun dəyişməsi, milli təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiyası, xüsusi təhsil xidmətləri bazarının formalaşması və inkişafı baş verir. Bu bazarın formalaşması və səmərəli fəaliyyət göstərməsi əmək bazarının keyfiyyəti, dövlətin iqtisadi inkişaf səviyyəsini, ölkənin iqtisadi inkişaf tempini və rəqabət qabiliyyətini müəyyən edir.

Dünya təhsil xidmətləri bazarı çox sürətlə inkişaf edir. Son illərdə **dünya təhsil xidmətləri bazarı 100 milyard ABŞ dolları** təşkil edib. Təhsil xidmətləri bazarında aparıcı yerləri ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Avstraliya, Çin, Yaponiya, Rusiya və Kanada tutur. Artıq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə tələbələrin təhsili dövlətin qarşısında dayanan əsas məsələlərdən birinə çevrilib. Xaricdə təhsil və xarici tələbələrin ölkədə təhsilinə şəraitin yaradılması mühüm iqtisadi-siyasi məsələ kimi araşdırılır. Hətta bu hadisəni ifadə edən Beynəlxalq Akademik Mobillik (BAM) anlayışı da artıq iqtisad elminə daxil olub.

Təhsil xidmətinin idxal və ixracı kifayət qədər yeni iqtisadi əlaqələr sahəsi olmaqla yanaşı, həm də özünəməxsus xüsusiyyətlərə malikdir. Təhsil xidməti- bilik və bacarıqların istehsalçıdan (tədris edən) istehlakçıya (təhsil alan) ötürülməsi prosesidir. Xidmətin keyfiyyətini qısa müddətdə ölçmək və ya dəyərləndirmək çətindir, bu xidmətin tam dəyərləndirilməsi xidmətin tam həyata keçirilməsindən sonra mümkün olur.

**Təhsil xidmətləri ölkədaxili və beynəlxalq bazarlara bölünür.** Birinci halda təhsil xidmətlərinin subyektləri, satıcı və alıcı eyni ölkə olur. Təhsil xidmətlərinin alıcısı və satıcısı müxtəlif ölkələrə aid olarsa, belə xidmətlər bazarı beynəlxalq təhsil bazarına aid edilir. Belə bazarlar ölkələrarası iqtisadi və siyasi əməkdaşlığa əsaslanır. Müasir dövrdə təhsil xidmətləri bazarında rəqabətin gücləndiyini nəzərə alsaq, ölkənin iqtisadi rəqabətqabiliyyətliliyinin bir göstəricisi kimi, təhsil sistemində innovasiya proseslərinin genişləndirilməsinə ciddi ehtiyac vardır.

**Dünya təhsil xidmətləri bazarı** müxtəlif ölkə vətəndaşlarının xaricdə, həmçinin xarici təhsil müəssisələrin daxili bazarda göstərdikləri xidmətin istehlakı ilə xarekterizə olunur. Dünya təhsil xidmətləri bazarı bir neçə seqmenti özündə birləşdirir. Bura dil kursları, məktəb təhsili, ali təhsil, sənət təhsili və sair daxildir. Bu təhsil seqmentləri bir-biri ilə qarşılıqlı əlaqəlidirlər. Belə ki, xaricdə təhsil almaq üçün bu ölkənin tədris dilini bilmək vacibdir. Odur ki, xarici ölkədə təhsil almaq prosesi hər şeydən əvvəl dil kursları ilə bağlı təhsil xidmətini tələb edir.

Son 10 ildə təhsil xidmətlərinin genişlənməsi bəzi inkişaf etmiş dövlətlərin dövlət siyasətinin mühüm istiqaməti olmuşdur. Birincisi, xarici ölkələr üçün yüksəkixtisaslı mütəxəssislərin hazırlanması ixracın mühüm istiqamətlərindən biridir. İkincisi, yüksəkixtisaslı kadrlar hazırlanması ayrı-ayrı inkişaf etmiş ölkələrin geosiyasi və iqtisadi maraqlarının reallaşmasıdır, üçüncüsü xarici kadrların cəlb edilməsi, ali məktəbləri islahatlar aparmağa, dünya səviyyəli tələbələr hazırlamağa məcbur edir, təhsilin keyfiyyəti yüksəlir, yeni tədris proqramları və vəsaitləri hazırlanır, nəticədə milli universitetlər beynəlxalq elmi-təhsil komplekslərinə cevrilirlər. Eyni zamanda universitetləri yüksək səviyyədə qurtarmış tələbələr həmin ölkədə qalaraq elm və təhsilin inkişafında mühüm rol oynayırlar. Bununla əlaqədar olaraq hər bir dövlət öz universitetlərinə ciddi təsir göstərir, onları stimullaşdırır ki, təhsilə daha çox xarici tələbələr cəlb olunsunlar.

Azərbaycan Respublikasının təhsil sahəsində digər ölkələrlə əməkdaşlığı ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanması və onlara müvafiq dövlət orqanları tərəfindən nəzarət edilməsi ilə tənzimlənir. Təhsil sahəsində əlaqələr əsasən Azərbaycanla dünya ölkələri arasında bağlanılan müqavilələrin təməli üzərində qurulmuşdur. Azərbaycanın keçmiş sovet respublikaları ilə beynəlxalq iqtisadi əlaqələri uzun müddət ərzində formalaşmış və inkişaf etmişdir.

2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatların keçirilməsi üzrə Dövlət Proqramında əsas amillər: ali təhsil məzmununun "Bolonya" prosesi prinsiplərinə uyğunlaşdırılması, müasir cəmiyyətin tələblərinə cavab verən, iqtisadiyyata əsaslanan bilik və bacarıqların yüksəldilməsi yolu ilə ali təhsildə islahatların həyata keçirilməsi. Qeyd olunan dövlət proqramları təhsilin inkişafı ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişafı üçün də xidmət göstərir. Dövlət proqramlarından əlavə, təhsilin səviyyəsini yüksəltmək məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq layihələrinin həyata keçirilməsi bu prosesin sürətlənməsinə şərait yaradır. Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı üzrə Layihə (2003-2008-ci illər) çərçivəsində 2003-cü ildən təhsil sistemində maliyyə islahatlarına başlanılmışdır.

"Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (31 yanvar 2008-ci il №2643), Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Alman Akademik Mübadilə Xidməti arasında Azərbaycan tələbələrinin Almaniyada təhsil üzrə təqaüd proqramı ilə bağlı Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı( 1 may 2008-ci il, №2788), Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (18 iyun 2008-ci il, №2871) imzalanmış sazişləri xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli, 295 nömrəli Sərəncamı ilə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

2010-cu ildə Aİ-nin Tədqiqat və Texnoloji İnkişaf üzrə Yeddinci Çərçivə Proqramı (FP7) ilə bağlı Azərbaycan üçün prioritet sahələr üzrə ilk dəfə olaraq milli əlaqələndiricilər təyin olunmasına nail olunmuşdur.

2013-cü ilin oktyabrında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul edilmişdir. Strategiya Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün **beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri** nəzərdə tutur:

- Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

- İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət etməklə təhsil alanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

- Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

- Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

- Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, müxtəlif mənbələrdən istifadə olunmaqla təhsilin maliyyələşdirməsi mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Hər il İngiltərənin Times Higher Education (THE) və Quacquarelli Symonds (QS) adlı şirkətləri dünya universitetlərinin reytinq cədvəlini müəyyən edirlər. Bakı Dövlət Universiteti QS-nin Dünya universitetlərini sıralamasında 2016-cı ildə 701-ci sırada olmuşdur. BDU-da əcnəbi tələbələrin sayı 439 nəfərdir. Onlardan 14 faizi aspirant, 86 faizi bakalavrdır. Bu təhsil müəssisəsi Şərqi Avropa və Mərkəzi Asiya (EECA) ölkələrinin universitetləri arasında 88-ci yerdədir.

"QS" reytinq cədvəlində universitetlərin dünyada nüfuzu - 30 faiz, məzunların nüfuzlu təşkilatlarda işlə təmin olunması -20 faiz, müəllim-tələbə nisbəti - 15 faiz, xarici müəllimlər və tələbələr — 2,5 faiz, Pph.D dərəcəsi olan müəllimlər - 5 faiz, elmi məqalələrin sayı -10 faiz, məqalələrə edilən istinadlar - 5 faiz, universitet saytlarının gücü - 10 faiz kimi meyarlara görə formalaşdırılır. Şirkətin 2013-2014-cü il üçün açıqladığı siyahıda Azərbaycandan 3 ali məktəb yer alıb. 651-ci pillədə Xəzər Universiteti, 700-cü pillədə isə Qafqaz Universiteti qeyd olunub. Siyahıda yer alan üçüncü Azərbaycan ali məktəbi isə 701-ci pillədə Bakı Dövlət Universiteti (BDU) qərarlaşıb.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məlumatlarına görə, Azərbaycan ali məktəblərində təhsil alan əcnəbi tələbələrin 18 faizi pedaqoji, 19 faizi humanitar və sosial, 3 faizi mədəniyyət və incəsənət, 11 faizi iqtisadiyyat və idarəetmə, 33 faizi texniki və texnoloji, 1 faizi kənd təsərrüfatı, 15 faiz səhiyyə, rifah və xidmət ixtisasları qrupuna aiddir. Təbiət ixtisasları qrupuna daxil olan əcnəbi tələbələrin sayı xeyli azdır və ya yoxdur.

2000-ci ildən başlayaraq ölkə iqtisadiyyatına neft gəlirlərinin daxil olması digər sahələr kimi, təhsil və səhiyyə sahələrinə də əlavə investisiyalar qoymaq imkanını genişləndirdi. Bu dövrlərdə yoxsulluq və işsizlik səviyyəsi azalmağa başladı. Əhalinin gəlirlərinin artması təhsilə və səhiyyəyə əlavə vəsaitlərin ayrılmasına imkan yaratdı. Ölkənin daxili və xarici siyasətini təmin edən təsisatların fəaliyyəti, müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması və iqtisadiyyatın yeni infrastrukturunun formalaşdırılması məqsədi ilə hökumət tərəfindən həyata keçirilən tədbirlər respublikamızda bir sıra ixtisaslar üzrə kadr çatışmazlığı probleminin həllini zəruri etmişdir. Bu dövrlərdən başlayaraq xaricdə təhsil alan tələbələrin sayında da kəskin artma hiss olunur. Xüsusilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsi xaricdə təhsil prosesinə ciddi təkan verdi.

**Məhz bu dövrdən başlayaraq** dövlət xətti ilə xaricdə təhsil alan tələbələrlə yanaşı, öz vəsaiti hesabına xaricdə təhsil alan tələbələrin də sayı artmağa başladı. Lakin nəzərə almaq lazımdır ki, xaricdə təhsilin geniş təbliği və xaricdə təhsil alan azərbaycanlı tələbələrin sayının getdikcə artması müsbət təsirlərlə yanaşı, bəzi mənfi təsirlərə də malikdir. Belə ki, xaricdə təhsilin iqtisadi aspektləri getdikcə diqqəti daha çox cəlb edir. Dövlət hesabına xaricdə, o cümlədən MDB ölkələrində təhsil alan tələbələr haqqında Azərbaycan Dövlət Statistika Komitəsində və Azərbaycan Respublikası Təhsil Nazirliyində müfəssəl məlumatlar var. Lakin öz vəsaiti hesabına, yaxud müqavilə əsasında xarici ölkələrdə təhsil alan tələbələr haqqında məlumatlar Azərbaycanın müvafiq dövlət orqanlarında toplanmır. Müstəqilliyin ilk illərində Azərbaycan vətəndaşlarının xarici ölkələrdə, o cümlədən MDB ölkələrində təhsili üçün xeyli məhdudiyyətlər var idi.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanda neft hasilatının genişlənməsi, bazar iqtisadiyyatına keçid, yeni iqtisadi təfəkkür tərzinin formalaşması təkcə neft sektorunda deyil, digər sahələrdə də yeni bilik və bacarıqların olmasını tələb etdi. Keçən əsrin sonlarından, xüsusilə 2000-ci ildən başlayaraq yoxsulluğun azalması istiqamətində mühüm addımların atılması, neft gəlirlərinin Azərbaycan iqtisadiyyatına yönəldilməsi, əhalinin illik gəlirlərinin və həyat səviyyəsinin yüksəlməsi iqtisadiyyatda və cəmiyyətdə təhsilə olan münasibəti də xeyli dəyişdirdi. Məhz bu dövrdən başlayaraq xarici ölkələrdə təhsil almaq məqsədilə gedən tələbələrin sayı da artdı.

Türkiyə-Azərbaycan əlaqələrinin geniş inkişafı özünü Türkiyədə oxuyan tələbələrin sayında da göstərir. 1995/1996-cı tədris ilində Türkiyədə təhsil alan Azərbaycan tələbələri xaricdə oxuyan tələbələrin ümumi sayının 95 faizini təşkil edirdi. 2012/2013-cü tədris ilində isə dövlət hesabına xaricdə təhsil alan tələbələrin 39 faizi Türkiyənin payına düşmüşdür. Maraqlıdır ki, təhsil sahəsində mühüm uğurları olan Almaniya (12 faiz), Böyük Britaniya (12 faiz) və ABŞ-da (1,6 faiz) təhsil alan Azərbaycan tələbələrinin sayı Türkiyə ilə müqayisədə o qədər də çox deyil. Əlbəttə, bu məsələdə təkcə dil və ətraf mühitə uyğunlaşma problemi yox, həm də Türkiyə-Azərbaycan əlaqələrinin strateji mahiyyəti mühüm rol oynayıb.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrdə təhsil alan gənclərin əksəriyyəti (79,0 faizi) magistratura və bakalavr pillələrində, o cümlədən 1180 nəfəri bakalavr, 1430 nəfəri isə magistratura pilləsində təhsil alıblar. Dövlət Proqramı çərçivəsində bakalavr və magistratura pillələrinin hər biri üzrə gənclərin təhsili üçün prioritet sahələr müəyyənləşdirilmişdir. Bakalavr pilləsində tələbələrin əksəriyyəti iqtisadiyyat və idarəetmə (320 nəfər) sahəsində təhsil alırlar. Xarici ölkələrin universitetlərində magistratura pilləsində təhsil alan tələbələrin əksər hissəsi iqtisadiyyat və idarəetmə (722 nəfər), sənaye (138 nəfər), hüquq (1 20 nəfər) informasiya və kommunikasiya texnologiyaları (118 nəfər) ixtisasları üzrə təhsil alırlar. Bunlarla yanaşı, Dövlət proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrin digər qismi (692 nəfər və ya 21 faiz) təhsilin digər pillələrində - (aspirantura, ordinatura, rezidentura və doktorantura), o cümlədən 587 nəfər tibb sahəsində təhsil alır. Eyni zamanda, onlar arasında iqtisadiyyat və idarəetmə (22 nəfər), hüquq (17 nəfər), sənaye (14 nəfər) və sair (25 nəfər) sahələrdə təhsil almışlar. Bütün bunlarla yanaşı, Dövlət Proqramı çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Fransanın Dövlət Orta və Ali Təhsilin Təşkili Mərkəzi (CNOUS), Almaniyanın Alman Akademik Mübadilə Xidməti (DAAD), ABŞ-ın Fulbright və Rusiyanın Avrasiya Tədqiqatlar İnstitutu ilə bağlanmış sazişlər əsasında Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili təşkil edilir.

Bu tərəfdaş proqramlar vasitəsilə ümumilikdə 244 nəfər, o cümlədən Fransada (49 nəfər), Almaniyada (175 nəfər), ABŞ-da (19 nəfər) və Rusiyada (4 nəfər) universitetlərdə təhsil alırlar. 31 dekabr 2016-cı il tarixinə Dövlət Proqramı çərçivəsində xaricdə təhsili maliyyələşdirilmiş və məzun statusunu almış tələbələrin sayı 1404 nəfər təşkil etmişdir. Dövlət Proqramı çərçivəsində tələbə sayı Böyük Britaniyada 572, Türkiyədə 169, Almaniyada 132, Rusiyada 83, Fransada 71, Niderland Krallığında 63, ABŞ-da 58, İsveçrədə 44, Kanadada 36, Avstraliyada 26, C.Koreyada 26, İsveçdə 22, İtaliyada 22, İspaniyada 13, Çexiyada 8, Sinqapurda 7, İrlandiyada 7 nəfər və s. olmuşdur. Əlbəttə, Azərbaycan vətəndaşlarının əksəriyyəti xaricdə öz vəsaitləri hesabına təhsil alırlar. Xaricdə öz vəsaiti hesabına təhsil alanların sayı dövlət hesabına təhsil alanlardan bir neçə dəfə çoxdur. Amma bu sahədə dəqiq statistika yoxdur. Məsələn, 2013/2014-cü təhsil ilində Gürcüstanda təhsil alan xarici tələbələrin sayı 3420 nəfər olub. Onların 25 faizi, yəni 855 nəfəri Azərbaycan vətəndaşlarıdır. Lakin dövlət vəsaiti hesabına təhsil almaq məqsədilə Gürcüstana heç bir tələbə göndərilməyib. Deməli, bu tələbələrin hamısı öz vəsaiti hesabına təhsil alırlar. Türkiyədə təhsil alan xarici tələbələrin 14 faizi Azərbaycan vətəndaşlarıdır. 2011-ci ildə Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin sayı 3540 nəfər olub. Bu tələbələrin yalnız 842 nəfərinin təhsili dövlət hesabına nəzərdə tutulub.

Dünyada xarici tələbələrin sayına görə liderlik edən ABŞ-da Azərbaycan tələbələrinin sayı digər ölkələrlə müqayisədə o qədər də çox deyil. Qeyri-rəsmi məlumatlara görə, 2005/2006-cı tədris ilində ABŞ universitetlərində cəmi 220 azərbaycanlı təhsil alıb. 2010/2011-ci tədris ilində isə onların sayı iki dəfə artaraq 440 nəfər olub. Bunlardan cəmi 36 nəfəri dövlət xətti ilə təhsil alıb. Azərbaycandan dövlət xətti ilə ABŞ universitetlərində tələbələrin az olması orada təhsil xərclərinin yüksək olması ilə əlaqədardır.

Dünya İqtisadi Forumunun hazırladığı İnsan Kapitalı İndeksinə (2015-ci il) əsasən Azərbaycan 124 ölkə arasında 63-cüdür. Yuxarı-orta gəlirli 30 ölkə üzrə Azərbaycan insan kapitalına görə 15-ci yerdədir. Bu gəlir qrupuna daxil olan ölkələr üzrə ən yaxşı göstərici isə Macarıstan və Qazaxıstana məxsusdur. Azərbaycanda fərqli yaş qrupları üzrə ən aşağı keyfiyyət göstəricisi (təhsil və məşğulluq) 15-24 yaş qrupuna, ən yuxarı göstərici isə 55-64 yaş qrupuna aiddir. Bu o deməkdir ki, ölkənin ixtisaslı kadr potensialı yaşlı nəsil arasında, ən zəif kadrlar isə gənclər arasındadır. 25-54 yaş qrupunda ixtisaslı kadrların göstəricisinə görə ölkəmiz dünyada 85-ci yerdədir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik Hesabatına (2016) əsasən, Azərbaycan 144 ölkə arasında ali təhsil və təlimin keyfiyyəti göstəricisinə görə 78-ci, ali təhsilə cəlb olunma üzrə 94-cü, işçi heyətinin təlimi üzrə 82-ci, ibtidai təhsilin keyfiyyəti göstəricisi üzrə isə 81-ci yerdədir. Bu baxımdan, məhsuldarlıqəsaslı inkişaf modelinə keçid çağırışları fonunda ən mühüm təkmilləşdirmə istiqamətlərindən biri insan kapitalının hazırlanması prosesinin keyfiyyətinin daha da yüksəldilməsidir.

Hazırda ölkəmizdə həyata keçirilən təhsil siyasəti innovasiyaları, ömür boyu və fasiləsiz təhsili, ədalətli və rəqabətli təhsil mühitini, keyfiyyətə zəmanəti, səmərəli idarəetməni və beynəlxalq əməkdaşlığın inkişafını təşviq etməklə Azərbaycanda dünya səviyyəli ali təhsil xidmətləri göstərə bilən universitetlərin formalaşmasını və ölkəmizin cəlbedici regional ali təhsil məkanlarından birinə çevrilməsini hədəfləyir.

**Ələsgər SARIYEV,**
**iqtisad elmləri namizədi,**
**aparıcı elmi işçi,**
**Əsmər MƏNƏFOVA,**
**elmi işçi,**
**AMEA-nın İqtisadiyyat İnstitutu,**
**Qloballaşma və iqtisadi**
**münasibətlər şöbəsi.**

Respublika.- 2018.- 28 iyun.- S.11.